**AZƏRBAYCAN REPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELŞƏN NƏSİB oğlu ASLANOV**

# BAKI XALQ KOMİSSARLARI SOVETİNİN TARİXŞÜNASLIĞI

**İxtisas: 5509.01 - Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **A.C.İSGƏNDƏROV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **N.Z.MƏMMƏDOV**

Tarix üzrə fəlsəfə doktoru, dosent **F.F.ƏHMƏDOVA**

**Aparıcı müəssisə**: AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi"şöbəsi

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "__" _______2018-ci il tarixli iclasında, saat __00-da keçiriləcəkdir.

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.**

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" "__________" 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

## DİSSERTSİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** 1918-ci il aprelin 25-dən - iyulun 31-dək Cənubi Qafqazda Sovet hakimiyyətinin ilk səlahiyyətli orqanı kimi mövcud olan və Azərbaycan xalqına düşmən kəsilən Bakı Xalq Komissarları Sovetinin tarixşünaslığının araşdırılması totalitar hakimiyyət rejiminin türk-müsəlman xalqlarının öz istiqlalını, müstəqil dövlətini və dövlətçilik ənənələrini bərpa edib möhkəmləndirməsinə, milli-mənəvi dəyərlərini qoruyub saxlamasına, qan yaddaşına, dininə və dilinə bəslədiyi münasibətin, tolerantlıq dərəcəsinin hansı səviyyədə olmasını obyektiv surətdə əks etdirən reallıqların öyrənilməsi baxımından aktuallıq kəsb edən problemlərdən biridir. Çünki, hakimiyyəti ələ keçirdikdən sonra Zaqafqaziya Seymini əksinqilabi qurum elan edən və bütün səlahiyyətlərini Moskvanın göstərişi ilə həyata keçirən Bakı Xalq Komissarları Soveti 70 illik sovet dönəmində Cənubi Qafqazda “bolşevizmin qalası” və Azərbaycan xalqının "uğuru" kimi qələmə verilmişdir.

Uzun illər Bakı Xalq Komissarları Sovetinin həyata keçirdiyi antiazərbaycan mahiyyətli tədbirləri vacib və qanunauyğun fəaliyyət proqramı kimi təqdim edən sovet tarixşünaslığı əslində imperiya maraqlarını Cənubi Qafqazda qorumaq, möhkəmləndirmək və dərinləşdirmək üçün ermənilərdən istifadə etməyin ən əlverişli variant olduğunu, Fevral burjua inqilabından sonra milli-mədəni, ərazi muxtariyyəti uğrunda, qanlı mart qırğınlarından sonra isə müstəqil, demokratik dövlət qurmaq uğrunda gərgin mübarizəyə atılan milli istiqlal hərəkatına divan tutmaq üçün bolşeviklərin daşnaklarla eyni cəbhədə, birgə fəaliyyətini “sovet hakimiyyəti uğrunda əksinqilabı qüvvələrə qarşı mübarizə” kimi qələmə vermək üçün hər cür yalan və saxta beynəlmiləlçilik şüarlarından istifadə etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il yanvar ayının 18-də “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” imzaladığı sərəncamda qeyd olunur ki, “erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlər ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə” çatdırılmalıdır.[1]

[1] “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Azərbaycan Respublikasının Prezidentinin sərəncamı (18 yanvar 2018-ci il). “Azərbaycan” qəz., 19 yanvar 2018-ci il

Bakı Xalq Komissarları Sovetinin ziddiyyətlərlə dolu olan qısa zaman kəsiyindəki fəaliyyətini XX əsrin istər 20-30-cu illər, istərsə də 40-80-cı və sonrakı illər tarixşünaslığında ermənilərin "Böyük Erməni dövləti" ideyasının həyata keçirilməsi uğrunda apardıqları mübarizənin hər cür partiya mənsubiyyətindən, firqə məsləkindən öndə durduğunu aydın sezmək olur. Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral inqilabı və Oktyabr çevrilişindən məharətlə istifadə edən ermənilər öz məkrli iddialarını bolşevik bayrağı altında reallaşdırmağa cəhd göstərirdilər.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilk dəfə Bakı Xalq Komissarları Sovetinin tarixinə, siyasi fəaliyyətinə dair dövlət səviyyəsində verilən hüquqi-siyasi qiymət oldu: "1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başladı".[1]

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də S.Şaumyanın konkret olaraq nəinki Azərbaycanın, eləcə də bütün Cənubi Qafqazın ən nüfuzlu siyasi partiyası "Müsavat"a olan nifrətini "Cənubi Qafqazdakı siyasi partiyalara olan münasibəti" ilə ört-basdır etmək cəhdlərini üzə çıxarmaqdır. Təbii ki, sovet dönəmində, daha çox Kommunist Partiyasının tarixinə dair kitablarda bu tendensiyaya tez-tez rast gəlinir ki, bu da təkcə Moskvanın Qafqaz siyasətində erməni faktorunun tarixən böyük önəm kəsb etməsilə deyil, həmçinin mərkəzin özündə erməni "bolşeviklərin" nüfuz sahibi olması ilə əlaqədar idi. Məsələn, A. Mikoyan 1971-ci ildə nəşr olunmuş kitabında Şaumyanın Androniklə münasibətlərindən və onu "Erməni xalqının qəhrəmanı kimi salamlamasından" həvəslə söhbət açır.[2]

Bakı Xalq Komissarları Sovetinin türk-müsəlman əhalisini fiziki cəhətdən məhv etmək, Bakını faktiki və hüquqi olaraq Azərbaycandan ayırmaq cəhdləri müstəqillik dövründə aparılan tədqiqat əsərlərində təkzibedilməz faktlarla sübuta yetirildi.

---

[1] "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart fərmanı. "Azərbaycan"qəzeti. 1998-ci il, 27 mart.
[2] Микоян А.И. Дорогой борьбы. М.: Политиздат, 1971, с.42

Tarixən yeraltı və yerüstü sərvətləri ilə, son dərəcə əlverişli geostrateji, geosiyasi mövqeyi ilə diqqət mərkəzində olan, XX əsrin sonlarında sosializm buxovlarından qurtularaq, müstəqilliyə, istiqlala qovuşan, regionun ən güclü dövləti olan azad, suveren Azərbaycan Respublikası yenidən köhnə havadarlarının dəstəklədiyi erməni təcavüzü ilə üz-üzə qalıb. İnformasiya mübarizəsinin böyük önəm kəsb etdiyi müasir dövrdə ermənilərin xalqımıza qarşı heç zaman əl çəkmədikləri düşmənçilik siyasətinin, vəhşi və mənfur xislətinin geniş dünya ictimaiyyətinə çatdırılması hər zaman gündəmdədir və öz aktuallığını itirmir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bolşevik-daşnak birləşmələri tərəfindən Azərbaycanda 1918-ci ilin yazında həyata keçirilən soyqırımı araşdırmaq üçün gördüyü işləri yüksək dəyərləndirmişdi: "Əslində bu azərbaycanlılara qarşı yürüdülən soyqırım və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi".[1]

Müstəqil dövlətimizdə həlli vacib olan çox mühüm vəzifələrdən biri milli özünüdərkin formalaşdırılması, milli-mənəvi dəyərlərin bərpasıdır. Bu işdə Azərbaycan xalqının çoxəsrlik tarixinin bütün mərhələlərinə obyektiv yanaşma, onların tədqiqi, tarixi gerçəkliklərin məhz həqiqət prizmasından qiymətləndirilməsi mühüm vəzifələrdən biridir.

XX əsrin əvvəllərində Azərbaycanın müstəqillik ideyalarına, milli demokratik qüvvələrə zərbə vurmaq məqsədilə Stepan Şaumyan başda olmaqla daşnak-bolşevik birləşmələrinin 1918-ci ilin yazında törətdikləri soyqırımın elmi-obyektiv müstəvidə, ilkin və etibarlı mənbələr əsasında tədqiq olunması son dərəcə mühüm ictimai-siyasi əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti** 1918-ci il aprelin 25-dən - iyulun 31-dək fəaliyyət göstərən Bakı Xalq Komissarları Sovetinin tarixşünaslığıdır.

**Tədqiqatın predmeti** Bakı Xalq Komissarları Sovetinin fəaliyyət göstərdiyi dövrdə meydana çıxan problemlərlə bağlı məsələlərinin tarixşünaslıqda tədqiqi və araşdırılmasıdır.

**Tədqiqatın xronoloji çərçivəsi** dissertasiyada qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq XX əsrin 20-ci illərindən sovet tarixşünaslığında yazılan ilk əsərlərdən tutmuş, ta müstəqil Azərbaycanın çağdaş tarixşünaslı-

[1] "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart fərmanı. "Azərbaycan"qəzeti. 1998-ci il, 27 mart

ğı da daxil olmaqla XXI əsrin əvvəllərinədək olan böyük bir dövrü əhatə edir.

Bu xronoloji çərçivə daxilində həm sovet, həm mühacir və xarici ölkə, həm də çağdaş vətən tarixşünaslığında Bakı Xalq Komissarları Sovetinin yaranması, fəaliyyəti və süqutuna həsr olunmuş tarixi əsərlərin obyektivlik və tarixilik baxımından tədqiqi, təhlili, tənqidi, dəyərləndirilməsi həyata keçirilmiş, müxtəlif mərhələlərdə meydana çıxan siyasi və ideoloji konsepsiyalara münasibət bildirilmiş, qarşıda duran problemlər və tədqiqat sahələri müəyyənləşdirilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Qeyd etmək lazımdır ki, Bakı Xalq Komissarları Sovetinin tarixşünaslığına həsr olunmuş ayrıca elmi tədqiqat əsəri yoxdur. Bakı Xalq Komissarları Soveti haqqında istər 1920-1930-cu illər[1], istərsə də sonrakı dövrlərdə sovet tədqiqatçıları tərəfindən bu və ya digər şəkildə məlumatlar verilmişdir.[2]

Bakı Xalq Komissarları Soveti ilə bağlı bir çox real, elmi baxımdan mühüm əhəmiyyət daşıyan faktların üzə çıxarılmasında müstəsna əhəmiyyət kəsb edən 1920-1930-cu illər sovet tarixşünaslığı Bakı Kommunasının, eləcə də Azərbaycanda sovet hakimiyyətinin qələbəsini konseptual baxımdan tamamilə fərqli bir tərzdə təqdim edir. Belə ki, bu dövrün tədqiqatçıları olan Qırmızı Professorlar İnstitutunun məzunları Y.Ratqauzer və A. Dub-

---

[1] Бурджалов Э. Двадцать шесть Бакинских Комиссаров. М.: Политическая литература, 1938, 111 с.; Дубнер А. Бакинский пролетариат в годы революции (1917-1920). Баку: АЗГНИИ, 1931, 138 с.; Караев А.Г. Из недавнего прошлого. Баку: Бак. рабочий, 1926, 135 с.; Попов Г. «Железный полк» им «26». Баку: АЗГИЗ, 1927, 58 с.; Раевский А. Английские «Друзья» и Мусаватские «патриоты». Баку: АЗГИЗ 1927, 72 с.; yenə onun: Английская интервенция и Мусаватское правительство, Баку: Красный Восток, 1927, 191 с.; yenə onun: Партия Мусават и ее контрреволюционная работа Баку: АЗГИЗ, 1929, 64 с.; Сеф С.Е. Борьба за Октябрь в Закавказье. Тбилиси: Акционерное общ. Зак. книга, 1932, 162 с.; yenə onun: Революция 1917 года в Закавказье (Документы и материалы) Тбилиси: Акционерное общ. Зак.книга, 1927, 891 с.; Стеклов А. Армия мусаватского Азербайджана. Баку: АЗГИЗ, 1928, 74 с.; yenə onun: Красная Армия Азербайджана. Баку: АзГиз, 1928, 31 с.; Третья годовщина Великого Октября 1917-1920. Баку: Азерцентропечать, 1920, 48 с; Штейн Г. Бакинская Коммуна. Баку: Красный Восток, 1928, 82 с.;

[2] Азизбекова П.А. Ленин и Советский Азербайджан. Летопись 1917-1924 гг. Баку: Элм, 1970, 163 с.; Казиев М., Баласанян Н. Степан Шаумян. Краткий биографический очерк. Баку: Азерб. филиал ИМЭЛ при ЮКВКП (б) 1948, 32 с.; Казиев М. Мешади Азизбеков. Баку: Изд.Азерб-го филиала ИМЭЛ при ЦК ВКП (б), 1948, 23 с.; Лифшиц Л. Героический подвиг Бакинских большевиков. Баку, Азер-нешр, 1964, 290 с.; Памяти 26 Бакинских комиссаров. Баку: Азернешр, 1968, 201 с.

ner 1917-ci ilin oktyabrından 1918-ci ilin martınadək olan dövrü ikihakimiyyətlilik dövrü hesab etdiklərinə görə sonrakı dövr sovet tarixşünaslığında Z.İbrahimov və Y.Tokarjevskinin qınağına tuş gəlmişdilər: "Azərbaycanda sosialist inqilabının tarixinə dair ədəbiyyatda Sovet hakimiyyəti uğrunda mübarizənin mərhələləri məsələsi dəqiq qoyulmamışdır. Bir sıra müəlliflər - Y.Ratqauzer, A.Dubner 1917-ci ilin oktyabrından 1918-ci ilin martınadək olan dövrü ikihakimiyyətlilik, Bakı Soveti hakimiyyətinin formal mövcud olması dövrü kimi xarakterizə edirdilər ki, bu da əslində həmin aylarda Bakı Soveti hakimiyyətinin mövcud olmasını inkar etmək demək idi".[1]

Y.Ratqauzerin Bakı Xalq Komissarları Soveti ilə bağlı fikirlərini oxuyarkən, onların sanki, sovet tarixçisinin deyil, bolşevik təbirincə desək, "Sovet tarixini saxtalaşdıran" hansısa bir burjua tarixçisinin qələmindən çıxması qənaətinə gəlirsən. Y.Ratqauzer aydın şəkildə bolşeviklərin azərbaycanlıları milli, dini mənsubiyyətə görə "ikinci plana" keçirdiklərini söyləməkdən çəkinmirdi: "Bolşeviklərə gəldikdə isə onlar öz çıxışlarında müsəlmanların inqilaba cəlb edilməsindən danışırlar, lakin, əməldə onlar bu işi həyata keçirmirdilər".[2] Müəllifin Bakı Xalq Komissarları Sovetinin simasında Sovet hökumətinin türk-müsəlman əhalisinə bəslədiyi münasibətin mahiyyətcə çar Rusiyasının siyasətindən heç nə ilə fərqlənmədiyini yazması da heyrət doğurur: "Inqilaba qədərki Rusiya hökumətinin siyasəti türk əhalisinin təcridinə yönəldilmişdi. Bu xalq həm maddi, həm də mədəni baxımdan ən axırıncı planda idi. Inqilabi proletar partiyası məhz bu səddi, bu amili aradan qaldırmalı və heç bir xalqın digərindən üstün olmadığını sübut etməliydi. Çox təəssüf ki, bolşeviklər bu işin öhdəsindən lazımınca gələ bilmədilər".[3]

XX əsrin 40-80-ci illər sovet tarixşünaslığında Bakı Xalq Komissarları Soveti ilə bağlı əvvəlki illərdə verilən məlumatlarla rastlaşmırıq: "Çox təəssüflər olsun ki, Sovet Ordusu yerli əhali ilə olan ziddiyyətli məqamları dinc yolla həll etməyi ya bacarmır, ya da bunu istəmirdi".[4] Bəs nə üçün? Bu sualın ən yaxşı cavabını Bakı Xalq Komissarları Soveti sədrinin oğlu Suren

[1] İbrahimov Z.İ., Tokarjevski Y.A. 1920-ci illərdə və 30-cu illərin əvvəllərində Azərbaycan Sovet tarixşünaslığı məsələsinə dair/Tarix İnstitutunun əsərləri. Bakı: Az. SSR EA-nın nəşriyyatı, 1966, XVII c. s.6-31

[2] Ратгаузер Я.А. Революция и гражданская война в Баку. ч.1, 1917-1918 гг. Баку: Красный Восток, 1927, стр.66-67

[3] Yenə orada, s.10

[4] Ратгаузер Я.А. Революция и гражданская война ..., с.164

Şaumyan verir: "1918-ci ilin Bakı hadisələrində "Daşnaksütyun" partiyasının rolu heç də az maraq kəsb etmir. Yuxarıda qeyd etdiyimiz kimi daşnaklar türk-müsəlman bandalarının hücumundan müdafiə olunmağımızda fəal rol oynadılar. Bu isə o deməkdir ki, Qızıl Ordunun böyük əksəriyyəti daşnaklardan ibarət idi".[1]

Bakı Xalq Komissarları Soveti sədri S.Şaumyanı Bakının azərbaycanlılardan ibarət olması ciddi şəkildə narahat edirdi: "Şəhərimizin milli tərkibi bizi qorxudurdu. Biz qorxurduq ki, mübarizə arzuolunmaz çalar alacaqdır. Biz hətta erməni alayının köməyindən istifadə etməli olduq. Biz onların köməyindən heç cür imtina edə bilməzdik. Erməni alayının xidmətlərindən istifadə etmək zəruri idi, əldə olunan qələbə isə o qədər böyükdür ki, bu reallığa elə də xələl gətirmir".[2] Bu fikirlərin həmin orqanın sədri tərəfindən aydın şəkildə bəyan edilməsi Bakı Xalq Komissarları Sovetinin mahiyyətini, onun hansı amala xidmət etdiyini, xalqımıza yad qurum olduğunu bir daha təsdiqləyir. Halbuki, XX əsrin 40-80-ci illər sovet tarixşünaslığında Şaumyanın ancaq şişirdilmiş ideal obrazı yaradılmışdı.[3]

Bakı Xalq Komissarları Sovetinin tarixinin tədqiqində azərbaycanlı komissarların, ilk növbədə isə N.Nərimanovun əsərlərinin yenidən təhlil edilməsi böyük əhəmiyyət kəsb edir. Sovet dönəmində N.Nərimanovun Bakı Xalq Komissarları Soveti ilə, xüsusən də mart hadisələri ilə bağlı tənqidi fikirləri, onun sosialist inqilabı ilə bağlı baxışlarında yol verdiyi səhvləri, yanlışlıqları etiraf etməsi geniş ictimaiyyətdən gizlədilirdi. Amma, N.Nərimanovun hətta XX əsrin 20-30-cu illərdə nəşr olunan əsərlərinə diqqətlə yanaşdıqda onun bu gün də aktuallığını itirməyən fikirlərinin şahidi oluruq. Onun fikrincə, Bakıdakı siyasi müharibə millətçi müharibə idi və ermənilər bolşevizm bayrağı altında qeyri-insani işlər törədirdilər. N.Nərimanovun mart qırğınları ilə əlaqədar yazdığı bu sözlər bir daha bolşeviklərin bu qırğını əvvəlcədən planlaşdırdığı, ermənilərin bolşevizm pərdəsi altında xalqı-

---

[1] Шаумян С.С. Бакинская Коммуна. Баку: Красный Восток,1927, стр.40

[2] Ратгаузер Я.А. Революция и гражданская война ..., с.158-159; Шаумян С.Г. Статьи и речи: 1908-1918. Баку: Бакински рабочий,1924, стр.120-123, 127-130, 142-144, 156-165; Abbasov Ş. 26 Komissar. Bakı: Azərnəşr, 1937, 24 s.

[3] Dadaşlı Ə. Stepan Georgiyeviç Şaumyan/Təbliğatçı jurnalı. 1947, № 6, s. 68-69; 26 Bakı Komissarı. Bakı: Azərnəşr 1958, 444 s.; Казиев М., Баласанян Н. Степан Шаумян. Краткий биографический очерк. Баку: Азерб. филиал ИМЭЛ при ЮКВКП (б) 1948, 32 с.; Кариням А. Шаумян и националистические течения на Кавказе. Баку: Изд.Ист.парта, 1928, 46 с.; Шаумян С.С. Бакинская Коммуна. Баку: Красный Восток,1927, 118 с.

mıza qarşı milli zəmində soyqırımı siyasəti yeritdiyi aydın sezilir. Bundan başqa, N.Nərimanovun yazdıqlarından müsəlman bolşeviklərlə qeyri-müsəlman bolşeviklər arasında milli-dini fərqlərdən irəli gələn maneənin olduğu da bəlli olurdu. Artıq SSRİ-nin süqutu ərəfəsində işıq üzü görən müsəlman komissarın "Seçilmiş əsərləri"ndə dərc olunmuş "Vətəndaş müharibəsinin milli çalar almaması üçün nə etməliyik?" və s. məqalələrində də N.Nərimanovun Bakı Xalq Komissarları Sovetinə fərqli münasibəti özünü göstərir.[1]

Halbuki, istər XX əsrin 20-30-cu illər, istərsə də sonrakı dövr sovet tarixşünaslığında N.Nərimanov haqqında yazılan elmi kitab və məqalələrin heç birində onun Bakı Xalq Komissarları Soveti və bu antimilli qurumun liderləri ilə bağlı tənqidi fikirlərinə rast gəlmirik.[2]

XX əsrin 20-30-cu illər sovet tarixşünaslığında aşağıdakı xüsusiyyətlər aydın nəzərə çarpır: sovet siyasi sisteminin müəyyən etdiyi ideoloji tələblərə və qəliblərə ciddi surətdə riayət etmək; hadisələrin inkişaf dinamikasını hakim bolşevik partiyasının siyasi sifarişinə uyğun təsvir etmək; bu məqsədə nail olmaq üçün real tarixi hadisələri kobudcasına təhrif etmək, Bakı Xalq Komissarları Sovetinin siyasi fəaliyyətindəki nöqsan və qüsurları arxa plana keçirmək, yaxud bütün neqativ halların üstündən sükutla keçmək.

Bakı Xalq Komissarları Soveti liderlərinin, xüsusilə də S.Şaumyanın siyasi əqidəsinin əsl mahiyyətinin üzə çıxarılmasında 1920-ci illərdə azərbaycanlı müəlliflərin nəşr olunan əsərlərinin müstəsna əhəmiyyəti vardır. M.Vəlilinin(Baharlı) 1921-ci ildə Bakıda nəşr edilmiş "Azərbaycan: coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" adlı əsərindən bir məqama diqqət yetirək. Belə ki, müəllif Azərbaycanın iqtisadi-siyasi geriliyini: "Bu halı ölkədə davam etdirən - zalım Rusiya çar hökumətinin müstəbidanə rəftarında görür"dü.[3] M.Vəlili haqlı olaraq belə qənaətə gəlir ki, Azərbaycanın iqtisadi müstəqilliyi onun siyasi müstəqilliyini tezliklə gündəmə gətirən

---

[1] Нариманов Н. Нас обманывали и обманули/Нариманов Н. Избранные произведения в 3 томах. Том 2.Баку: Азернешр, 1989, с.120-122; yenə onun: Письмо С.Шаумяну и П.Джапаридзе и его обсуждение на собрание социалистов/Нариманов Н. Избранные произведения в 3 томах. Том 2. Баку: Азернешр, 1989, с.122-124; yenə onun: Что делать, чтобы гражданская война не приняла национальной окраски?/Нариманов Н. Избранные произведения в 3 томах. том 2. Баку: Азернешр, 1989, с. 151-152

[2] Алиев Х. Великий сын азербайджанского народа. Из биографии Н.Нариманова/ журнал Социалистическое Сельское хозяйство Азербайджана. 1957, № 11, с.19-21

[3] Vəlili(Baharlı) M. Azərbaycan. Coğrafi – təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: Azərnəşr, 1993, s.156

milli partiyaların yaranmasına, milli-siyasi fəallığın, istiqlal hərəkatının güclənməsinə gətirib çıxaracaqdı: "Çar Rusiyasının nəzərində Azərbaycan müstəmləkədir, əhalisi də kolonist kimi.(istismar olunanlar - E.A.). O biri cəhətdən, məmləkətin iqtisadiyyatı nəşvü nüma tapsaydı, milli cərəyanlara vüsət verəcəkdi ki, bu da çar hökümətinin xoşuna gələn cəhətlərdən deyildi".[1]

M.Vəlilidən gətirdiyimiz bu iqtibası Şaumyandan gətirdiyimiz aşağıdakı iqtibas da təsdiq edir: "Biz onlara (Zaqafqaziyanın hakim partiyalarına) demişdik, siz müxalifətdə dayanmaqla özünüzü məhv edəcəksiniz, bu labüd şəkildə yeni cəbhənin açılmasına gətirib çıxaracaq. Sizin millətçi siyasətinizdən narazı olan qüvvələr kortəbii və nizamsız bir şəkildə cəbhədən axışıb, bizim söylədiyimiz kimi, sizi süpürüb atacaq, məhv edəcək".[2]

Erməni tarixçisi Q.Qaloyan "Türkiyə Ermənistanı" haqqında dekretin: "Ermənilərə Rusiya tərəfindən işğal olunmuş "Türkiyə Ermənistanında öz müqəddəratını azad müəyyən etmək və tam muxtariyyət" verməsindən, Bakı Xalq Komissarları Sovetinin Oktyabr inqilabından sonra ermənilərə böyük himayəsindən ağızdolusu danışır.[3] Müsavatçıları isə: "Sovet Rusiyası ilə konflikt yaratmaqda maraqlı olduqlarına, Azərbaycan ərazisini isə antisovet mübarizə meydanına çevirdiklərinə" görə ittiham edir.[4] Q.Qaloyan həmin kitabında bir qədər əvvəl Şaumyandan gətirdiyi bu iqtibasa haqq qazandırır: "Düzdür, biz milli alaylardan istifadə etmək məcburiyyətində idik. Onlar, bizim müttəfiqlərimiz olduğuna görə, mübarizəyə milli çalar gətirdilər".[5]

Digər erməni tarixçisi S.Ağayan da S.Şaumyanın Andraniki milli qəhrəman kimi salamladığından, daşnakların Bakı Xalq Komissarları Soveti ilə əməkdaşlığından ağızdolusu söhbət açır.[6]

Bakı Xalq Komissarları Sovetinin sədri Şaumyan isə daşnaklarla əlbir fəaliyyətinin acı nümunəsi olan mart qırğınlarının nəticələrindən razılığını

---

[1] Vəlili(Baharlı) M. Azərbaycan. Coğrafi – təbii, etnoqrafik və iqtisadi mülahizat, s.156

[2] Шаумян С.Г. Избранные произведения. М.: Госполитиздат, 1958. стр.128

[3] Галоян Г. Социалистическая революция в Закавказье в освещении буржуазной историографии. М.: Московский рабочий, 1960, стр.133

[4] Yenə orada

[5] Yenə orada, стр.75

[6] Агаян Ц.П. Победа советской власти и возрождение армянского народа Москва: Мысль, 1981, стр.58

belə ifadə edirdi: “Bakıda biz bolşeviklərin təsiri onsuz da güclü idi, indi isə biz vəziyyətə sözün tam mənasında nəzarət edirik”.[1]

Beləliklə, erməni tarixçilərinin xüsusi şövqlə vəsf etdiyi Oktyabr inqilabından sonra “Rusiyanın işğal etdiyi Türkiyə ərazisində” “Türkiyə Ermənistanı” yaratmaq cəhdi siyasi əqidəsindən, partiya mənsubiyyətindən asılı olmayaraq bütün ermənilərin, o cümlədən, milli tərkibi, əsasən, ermənilərdən ibarət olan Bakı Xalq Komissarları Sovetinin qondarma “Böyük Erməni dövləti” ideyası uğrunda insanlığa yaraşmayan üsullarla regionun türk-müsəlman əhalisinə qarşı amansız mübarizəsinə yeni təkan vermiş oldu. Erməni müəlliflər “işğal” sözünü açıq işlətsələr də, nədənsə bu siyasəti həyata keçirən Sovet Rusiyasını “Rusiya” kimi təqdim edir, onun Qafqaz siyasətini, Qafqazın türk-müsəlman əhalisinə münasibətini çar Rusiyasının siyasəti və münasibəti ilə eyniləşdirirlər: “Hələ XIX əsrdə F.Engels yazırdı ki, monqol işğalından sonra yaranmış mərkəzləşdirilmiş rus dövlətinin yeganə bir siyasəti olmuşdur ki, bu da dünya ağalığı siyasətidir. V.Lenin tərəfindən irəli sürülmüş dünya inqilabı ideyası həmin dünya ağalığı siyasətinin dəyişmiş şəraitə uyğunlaşdırılmış yeni bir formasından başqa bir şey deyildi. Azərbaycanda 1918-ci ilin mart qırğınına gətirib çıxaran da məhz bolşeviklərin bu dünya ağalığı ideyası idi”.[2]

Azərbaycanlı müəlliflərin əsərlərində 1917-ci il fevral burjua inqilabından sonra Azərbaycandakı ictimai-siyasi vəziyyət, o cümlədən Bakı Soveti və Bakı Xalq Komissarları Sovetinin siyasi hakimiyyət uğrunda apardığı mübarizə sovet ideologiyası baxımından şərh olunsa da, faktoloji materiallara münasibət baxımından maraq doğurur. Məsələn, R.İsmayılov daşnaklarla bolşeviklərin əməkdaşlığından bəhs edərək yazırdı: “Şübhəsiz, daşnaklar birdən-birə Şura hökumətinin “tərəfdar”ı oldular ki, bolşeviklərin vasitəsilə düşmənləri olan “müsavatçıları” məhv edib, sonra şuranı dəxi dağıdıb, “Ulu Ermənistan” xəyalını icra etsinlər”.[3]

Ararat hökumətinin baş naziri O.Kaçaznuni yazırdı: “Müsavatı məhv edəndən sonra bolşeviklər də belə edərdilər. Bakı erməni əhalisinin təhlükəsizliyi nöqteyi-nəzərindən Müsavat diktaturasından çox bolşeviklər diktaturası üçün münasib idi”.[4]

---

[1] Шаумян С.Г. Избранные произведения, стр.210-211

[2] Balayev A.H. 1917-1920-ci illər Azərbaycan milli hərəkatında müxtəlif siyasi partiyaların rolu/ Azərbaycan Demokratik Respublikası elmi məqalələr toplusunda. Bakı: Azərnəşr 1992, s.31

[3] İsmayılov R. Azərbaycan tarixi. Bakı, 1923., Bakı: Azərnəşr, 1993, s.132

[4] Качазнуни О. Дашнакцутюн больше нечего делать! Баку: Элм, 1990, стр.21

Bakı Xalq Komissarları Sovetinin həyata keçirdiyi antimilli islahatları öyrənmək baxımından A. Dubnerin də əsərləri böyük əhəmiyyət kəsb edir. Bakı Xalq Komissarları Sovetinin yaranması ərəfəsində Bakıda, ümumiyyətlə, Azərbaycanda və Cənubi Qafqazda hökm sürən gərgin siyasi durum bolşevik ideologiyasının tələblərinə uyğun yazılsa da, bu gün elmi-obyektiv prizmadan tədqiq etmək üçün Z.İbrahimovun, Y.Tokarjevskinin, P.Əzizbəyovanın, C.Quliyevin, H.Əzimov və b. tarixçilərin əsərləri də maraq kəsb edir. [1]

[1] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Azərb. KP MK partiya tarixi institutu. Sov.İKP MK yanında Marksizm-leninizm institutunun filialı. I cild. Bakı: Azərnəşr. 1964, 818 s.; Əzimov H. Azərbaycan qəzalarında Sovetlər (1917-1918-ci illər). Bakı: Elm, 1971, 126 s.; yenə onun: Fevral inqilabından sonra Azərbaycanda sovetlərin yaranması və inqilabın dinc inkişafı dövründə onların fəaliyyəti/Tarix İnstitutunun Əsərləri, XVII c., s. 31-51; yenə onun: İnqilab dövründə Azərbaycanda kəndli təhşkilatları və sinfi mübarizə. Bakı: Elm, 1976, 37 s.; İbrahimov Z.İ. Bakı Xalq Komissarları Sovetinin sosialist tədbirləri/Azərb. Kommunisti jurnalı. 1958, № 8, s.27-36; yenə onun: Mərd mübarizlərin əziz xatirəsi (26 Bakı komissarının ingilis müdaxiləçiləri tərəfindən xaincəsinə öldürülməsinin 35 illiyi)/Azərbaycan jurnalı. 1953, № 9, s. 154-159; yenə onun: Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı: Azərnəşr, 1957, 585 s.; yenə onun: V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərnəşr 1970, 526 s.; yenə onun: 1918-ci ilin martında Bakıda Vətəndaş müharibəsi/ADU-nun (BDU)-nun Əsərləri, 1957, № 10, s.121-136; İbrahimov Z.İ., Hacıyev İ. Kommunizm uğrunda fədakar mübarizlərin əziz xatirəsi: (26 Bakı komissarının xaincəsinə öldürülməsinin 29-cu ildönümü)/ Təbliğatçı jurnalı. 1947, № 9, s. 31-45; İbrahimov Z.İ., İsgəndərov M. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar 1917-1918-ci illər. Ba-kı: Azərnəşr, 1960, 675 s.; Азизбекова П.А. В.И.Ленин друг народов Востока Сб. документов и материалов 1917-1924 гг. Кн.1. 1917-1920 гг. Баку: АН.Аз ССР, 1967, 423 с.; yenə onun: Великая дружба Азербайджанского и русского народов. Баку: АН Аз.ССР, 1964, 417 с.; yenə onun: За ленинской строкой. Баку: Гянджлик, 1987, 232 с.; yenə onun: Руководство В. И. Ленина Социалистическим Строительством в Азербайджане в 1920-1923 гг. Баку: АН Аз.ССР, 1960, 265 с.; Азизбекова П.А., Казиев М. Степан Шаумян. Баку, Азернешр, 1978, 139 с.; Азимов Г. Бакинская коммуна. Баку: Гянджлик, 1982, 136 с.; yenə onun: Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987, 321 с.; Гулиев Дж. Борьба Коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970, 705 с.; Памяти 26 Бакинских комиссаров. Баку: Азернешр, 1968, 201 с.; Токаржевский Е.А. Бакинские большевики - организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 году. Баку: Красный Восток, 1948, 43 с.; yenə onun: Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: изд. АН Аз.ССР, 1957, 332 с.; yenə onun: Серго Орджоникидзе и Красная Армия./Азерб. Институт истории партии им. Ст. Шаумяна. Баку: Азернешр, 1942, 32 с.; yenə onun: Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства (1921-1925 гг). Баку: АН

Adı çəkilən sovet tarixçilərinin hamısı Bakı Xalq Komissarları Sovetindən bəhs edərkən eyni stereotiplərə, sovet ideologiyasının müəyyən etdiyi qaydalara, üslub, forma və məzmun normalarına sadiq qalmış, Bakı Xalq Komissarları Sovetinin həyata keçirdiyi bütün tədbirləri Cənubi Qafqazda sovet hakimiyyətinin dayaqlarını möhkəmləndirməyə yönəldilmiş həyati vacib, qanunauyğun fəaliyyət proqramı kimi təqdim etmişlər. Bu müəlliflərin demək olar ki, hamısı Bakı Xalq Komissarları Sovetinin təşkilini tarixi zərurət hesab edir, bəhs olunan dövrdə məhz bolşeviklərin ən düzgün sosial-iqtisadi və siyasi platformaya malik olması fikrini cəmiyyətə xüsusi bir inadkarlıqla təlqin edirlər: "Bakıda Sovet hakimiyyətinin durmadan güclənməsi şəhərin iqtisadi həyatında proletariatın rolunu artırır, zəhmətkeşlərin həyat səviyyəsini artıran bir çox vacib tədbirlərin həyata keçirilməsi üçün zəmin hazırlayırdı".[1]

Bu əsərlərin hamısında bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qətliamlar Sovet hakimiyyətinin təntənəsi kimi qələmə verilir, Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan mahiyyəti bolşevizm pərdəsi altında ustalıqla ört-basdır edilirdi. Başqa sözlə, Bakı Xalq Komissarları Sovetinin tarixinə dair yazılan tədqiqat işlərində vətən tariximizin bəhs olunan dövrə dair reallıqları ideoloji maraqlara uyğun olaraq, ya təhrif edilir, ya da belə məqamların üstündən sükutla keçilirdi. A.İsgəndərov haqlı olaraq bir çox sovet tarixçilərinin hər hansı bir əsərindən: "...bəhs edərkən, onlara sərf edəcək dərəcədə bəhrələnməsi"nə, həmçinin həmin müəlliflərin ... çox zaman gətirdikləri sitatın məntiqi ehtivasından belə çəkinərək cümləni yarımçıq qoymasına" ciddi etiraz edir.

Bakı Xalq Komissarları Sovetinin tarixinə dair obyektiv prizmadan yazılan əsərlər mühacir və xarici ölkə tarixçilərinin, həmçinin müstəqillik illərində vətən tarixçilərinin əsərləri sayıla bilər. Adları çəkilən mühacir müəlliflərin əksəriyyəti AXC ideoloqları olduğu üçün onlar, bir tərəfdən, müstəqil Azərbaycanı tanıtmaq üçün Avropada və dünyanın başqa ölkələrində təbliğat aparmış, digər tərəfdən ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi qırğınların nəticələrini təhlil etməklə məşğul olmuşlar.

---

Аз.ССР, 1956, 211 с; Токаржевский Е.А, Казиев М. Алеша Джапаридзе. Баку: Красный восток, 1948, 40 с.; yenə onların birgə: 20 лет комсомольской печати Азербайджана. Баку: Азернешр, 1940, 46 с.;

[1] Rəhimov Ə. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı: Az. SSR EA nəşr., 1962, s.136

Mühacir müəlliflərdən M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, M.B.Məmmədzadə, H.Baykara, Y.V.Çəmənzəminli, C.Hacıbəyli və b. təkcə Bakı Xalq Komissarları Sovetinin fəaliyyətini deyil, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizəni, həmin dövrün ictimai-siyasi mənzərəsini çox dinamik və elmi obyektiv konteksdə təsvir etməyə nail olmuşlar. Məhz mühacir müəlliflər Bakı Xalq Komissarları Sovetinin anti-azərbaycan yönümlü siyasətini, ümumiyyətlə, Azərbaycanda bolşevik siyasi rejiminin xarakterini, xalqımıza qarşı soyqırımı, milli-müstəmləkə siyasəti kimi konseptual məsələləri dünya ictimaiyyətinə çatdırmaqla gündəmdə saxlaya bilmişlər.

Bakı Xalq Komissarları Sovetinin tarixinin araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, bu cinayətkar qurum Azərbaycan xalqına tamamilə yad olmuş, yerli türk-müsəlman əhalisi tərəfindən dəstəklənməmiş, heç bir sosial dayağa malik olmamış, hakimiyyətə silah və qan tökmək yolu ilə gəlmişdir. Bakı Xalq Komissarları Sovetinin tarixini tədqiq edən xarici ölkə tarixçilərinin demək olar ki, hamısı obyektiv surətdə hər bir millətin, o cümlədən Azərbaycan xalqının istiqlaliyyət mübarizəsini milli-azadlıq hərəkatı ilə, bu hərəkatın önündə duran siyasi partiyalarla vəhdətdə götürür, milləti öz arxasınca aparmağa qadir olan firqə və partiyaları bolşevik təşkilatları ilə üz-üzə qoyurlar. Xarici ölkə tarixçiləri Bakı Xalq Komissarları Sovetindən bəhs edərkən nəinki bu qurumun, həm də bolşevizmin, bolşevizm ideyalarının Azərbaycan xalqı üçün yad bir şey olduğunu dönə-dönə qeyd edirlər.[1]

Məhz bu səbəbdəndir ki, Bakı Xalq Komissarları Sovetini tədqiq edən xarici ölkə tarixçiləri həmişə ideoloji cəbhənin əks tərəfində dayanan həmkarları tərəfindən ciddi tənqid və qınaq obyektinə çevrilmişlər.[2]

---

[1] Svyatoxovski T. Rusiya Azərbaycanı 1905-1920-ci illər/Azərbaycan jurnalı.1989, № 11, s.117-154; Юсифзаде С.З. «Борьба за Закавказье» Ф.Кязем-заде как источник исследования Англо-азербайджанские отношения (1918-1920 гг.). Без истории нет настоящего и будущего. Баку: Азернешр, 1995, 191 с.; Erhorn I. Kaukasien. Berlin, 1939, 104 p.; Kazemzadeh F.The Struggle for Transcaucasia (1917-1921). New York: Philosophical Library, 1951, 354 p.; Pipes R. The Formation of the Soviet Union. Communisim and Nationalizm 1917-1923. Revised Edition. Harvard University Press. Cambridge, Massachusetts 1964, 365 p.; Suny R. The Baku Commune 1917-1918. Class and Nationality in the Russian Revolution. New Jersy: Princeton University Press, 1972, 362 p.

[2] Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı: Azərnəşr, 1972, 181 s.; Tokarjevski Y.A. Bakı Kommunası haqqında burjua saxtalaşdırıcılarının uy-durmaları və tarixi həqiqət/

Bakı Xalq Komissarları Sovetinin çağdaş dövr tarixşünaslığına gəlincə, ilk öncə diqqəti cəlb edən məqam vətən tarixinin məhz bəhs etdiyimiz dövrünə dair obyektiv tədqiqat əsərlərinin yazılmasıdır. Milli istiqlalımıza, azadlığımıza, canımıza, qanımıza və sərvətlərimizə qənim kəsilmiş, antimilli fəaliyyəti ilə xalqımızın köksünə sağalmaz yaralar vuran, mart qırğınları zamanı həlak olanların meyidləri üzərindən adlayaraq hakimiyyəti qəsb edən Bakı Xalq Komissarları Sovetinin əsl simasını geniş ictimaiyyət, nəhayət ki, müstəqillik illərində ərsəyə gələn Vətən tarixçilərinin əsərlərində gördü.

A.İsgəndərov bolşevik pərdəsi altında uğurla maskalanan, Bakıda, Şamaxıda, Qubada, Salyanda, Lənkəranda və Azərbaycanın bir çox bölgələrində xalqımıza qarşı əsl soyqırımı siyasəti həyata keçirən milli azadlıq və dövlətçilik istəyimizi beşikdəcə boğmağa çalışan bu cinayətkar qurumun antiazərbaycan mahiyyətli təbiətini ifşa edən dəyərli tədqiqat əsərlərinin sözün tam və geniş mənasında əsl qalereyasını yaratmışdır.[1]

Müstəqillik illərində T.Nəsirovun, B.Nəcəfovun, A.Balayevin, C.Həsənlinin, N.Nəsiblinin, E.Məmmədovanın, M.Süleymanovun, P.Darabadinin, V.Abışovun, A.Paşayevin, İ.Məmmədovun, M.Əlizadənin və bir çox digər müəlliflərin 1918-1920-ci illərin ictimai-siyasi ab-havasını, Cənubi Qafqazda və Azərbaycandakı siyasi durumu, Bakı Xalq Komissarları Soveti ilə "Müsavat" partiyası arasındakı gərgin münasibətləri əks etdirən tədqiqat əsərləri mövzunun öyrənilməsinə böyük töhfədir.[2]

---

Azərbaycan Kommunisti jurnalı. Bakı, 1975, 6 iyun; Заргарова А.А., Рзаева А.К. Фальсификаторы/газета Бакинский рабочий, 22 август 1975 года, с.2-3

[1] İsgəndərov A.C. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: Elm və təhsil. 2012, 226 s.; yenə onun: Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Bakı: n.y., 2003, 52 s.; yenə onun: Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2005, 396 s.; yenə onun: Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920. Bakı: Adiloğlu 2006, 391 s.; yenə onun: Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Bakı: MEQA, 2004, 85 s.

[2] Çıraqzadə V. İstiqlal yollarında. Bakı: Azərnəşr, 1992, 81 s.; Həsənov C. "Ağ ləkə"lərin kölgəsi. Bakı: Gənclik, 1991, 199 s.; yenə onun: Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920, Bakı: Azərnəşr, 1993, 361 s.; Nəsibli N. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Bakı: Gənclik, 1991, 305 s.; Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, 94 s.;Süleymanov M. Nuru Paşa. Bakı: Hərbi Nəşriyyat, 1999, 142 s.; Балаев А.Г. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990, 95 с.; yenə onun: Азербайджанское национальное движение: от "Мусавата" до Народного фронта. Баку: Элм, 1992, 104 с.; Дарабади П. Военные проблемы политической истории Азербайджана в XX веке.

Bu dövrdə ermənilərin Bakı Xalq Komissarları Soveti vasitəsilə xalqımıza qarşı yeritdiyi düşmənçilik siyasətini əks etdirən çoxsaylı kitabların nəşr edilməsi də mövzunun öyrənilməsinə böyük töhfə verdi.[1]

Məhz adı çəkilən bu tədqiqat əsərləri çox vaxt fakt və sənədlərin və Bakı Xalq Komissarları Sovetinin erməni liderlərinin öz dili ilə bu cinayətkar qurumun antiazərbaycan mahiyyəti daşıdığını, “Daşnaksütyun”la sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini aşkara çıxartdı.

Beləliklə, müstəqillik illərində Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan fəaliyyətini əks etdirən çoxsaylı tədqiqat əsərlərinin elmi dövriyyəyə daxil olması ilə istər sovet hakimiyyətinin ilk illərində, istərsə də şəxsiyyətə pərəstiş dövründə formalaşmış və durğunluq dönəmində dəyişməmiş stereotiplər içərisində SSRİ adlı böyük bir imperiyanın türk-müsəlman xalqlarına qarşı yeritdiyi ikili, bəzən hətta fiziki və mənəvi soyqırım səviyyəsinə qədər yüksələn siyasi xətti üzə çıxır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin tədqiqində qarşıya qoyulan məqsəd 1917-ci il Fevral burjua inqilabından sonra Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda cərəyan edən siyasi proseslərin gedişini, hakimiyyəti yalnız Bakıda mövcud olub, bolşevizmin dayaqlarını bütün Cənubi Qafqazda möhkəmləndirməyə cəhd edən Bakı Xalq Komissarları Sovetinin Azərbaycan xalqının istiqlal hərəkatına rəhbərlik edən “Müsavat”

---

Баку: Элм, 1991, 205 с.; yenə onun: Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М.: Весь Мир, 2010, 216 с.; Мамедова Э., Раджабов Р. Общественно-политические процессы в Азербайджане в 1917-1920 годы. Баку: Азернешр, 1997, 36 с.; Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX- начале XX века. ч.1, Баку: Элм, 1993, 392 с.; yenə onun: Лицо врага. История армянского национализма в Закав-казье в конце XIX- начале XX века. ч.2, Баку: Шарг-Гарб, 1994, 335 с.; Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920 гг.).Баку: Азернешр, 1993, 119 с.

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2 cilddə. I cild. Bakı: Lider nəşriyyatı, 2004, 440 s.; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2 cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005, 472 s.; Azərbaycan tarixi. 7 cilddə, 5-ci cild. Bakı: Elm, 2001, 628 s.; Bakı Kommunasının saxta tarixi. Bakını Azərbaycana qarşı qoyanlar/Millət qəzeti, 1998, 25 aprel; Cəfərov N. Milli ictimai fikir tariximizdən. (1914-fevral-1917).Bakı: Azərnəşr 1993, 79 s; Xudiyev İ. Erməni təcavüzünün Qarabağ ünvanı. Bakı: MSA 2013, 159 s.; Hacızadə H. Demokratiya gediləsi uzun bir yol. Bakı: «Əbilov, Zeynalov və oğulları» nəşriyyatı 2001, 445 s.; 26-lar xalqımıza düşmən idilər/Haray qəzeti, 22 aprel, 1992; Директивы Главного Командования Красной Армии (1917-1920) сборник документов/«Elm»in əlavəsi «Tarix» qəzeti, 1991, 1 iyun №18, s.3; К делу об аресте 26/Tarix qəzeti, 1990, 30 oktyabr, №4, s. 2

partiyası ilə siyasi hakimiyyət uğrunda apardığı mübarizəni tarixşünaslıq müstəvisində tədqiq etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur::

- Bakı Xalq Komissarları Soveti tarixinin tədqiq olunan xronoloji çərçivədə öyrənilməsində tarixşünaslıq mərhələlərini müəyyənləşdirmək və hər mərhələnin xüsusiyyətlərini göstərmək;

- Bakı Xalq Komissarları Sovetinin fəaliyyətini tədqiq edən 20-30-cu illər sovet tarixçilərinin əsərlərindən sovetin antiazərbaycan siyasətini əsaslandırmaq üçün konkret tarixi faktları aşkarlamaq və təhlil etmək;

- XX əsrin 20-30-cu illərində Bakı Xalq Komissarları Soveti liderlərinin, o cümlədən, S.Şaumyanın nəşr olunmuş məqalə və nitqlərində Bakı Xalq Komissarları Sovetinin qondarma "Böyük Erməni dövləti" ideyasına xidmət etmək məqsədi ilə "Daşnaksütyun" partiyası ilə əməkdaşlığını etiraf edən çoxsaylı faktların üstündən XX əsrin 50-80-ci illər tarixşünaslığında çox vaxt sükutla keçilməsinin və yeni səpkidə təqdim edilməsinin səbəbləri araşdırmaq;

- XX əsrin 20-30-cu illərində problemlə əlaqədar Sovet Azərbaycanında və onun hüdudlarından kənarda dərc olunmuş əsərlərdə N.Nərimanovun Bakı Xalq Komissarları Sovetinə münasibətdə sovet ideoloji təpkisini üstələyən, milli təəssübkeşlikdən irəli gələrək məsələyə fərqli münasibətini tədqiq etmək və onun Bakı Xalq Komissarları Sovetinə, ümumiyyətlə, Azərbaycanda bolşevizmə, sovet rejiminə dair baxışlarına obyektiv qiymət vermək;

- XX əsrin 40-80-ci illərində problemlə bağlı Bakı Xalq Komissarları Sovetinə dair tədqiqat işlərində 1918-ci ilin martında S.Şaumyanın bilavasitə rəhbərliyi ilə Bakıda və Azərbaycanın digər bölgələrində "erməni-bolşevik"birləşmələrinin həyata keçirdiyi soyqırımların Sovet hakimiyyətinin möhkəmləndirilməsi üçün görülən tədbirlər kimi təqdim edilmək cəhdlərinə ideoloji cəhətdən bəraət qazandırılmasının səbəblərini araşdırmaq və elmi cəhətdən əsassız olduğunu təhlil etmək;

- mühacir tarixşünaslığın tədqiqi ilə əlaqədar olaraq Azərbaycan Xalq Cümhuriyyəti liderləri - M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun, C.Hacıbəylinin, Y.V.Çəmənzəminlinin, M.B.Məmmədzadənin, o cümlədən Azərbaycan xalqının istiqlal mübarizəsinə dair qiymətli əsərlər yazmış C.Zeynaloğlunun, H.Baykaranın və b. əsərlərini tədqiqata cəlb etnəklə Bakı Xalq Komissarları Sovetinin siyasətinin əsl mahiyyətini araşdırmaq;

- tədqiq olunan problemlə bağlı sovet tarixşünaslığından fərqli olaraq, xarici ölkə tarixçilərinin Bakı Xalq Komissarları Sovetinin milli tərkib,

siyasi mövqe baxımından Azərbaycan xalqının tarixi, milli-mənəvi və ictimai-siyasi dəyərləri ilə heç cür uyğunluq təşkil etmədiyini, yad bir qurum olduğunu əsaslı şəkildə sübut edən baxışları obyektiv prizmadan tədqiq olunmuşdur.

**Tədqiqat işinin metodoloji əsası.** Dissertasiya işinin metodoloji əsasını tarixilik və obyektivlik prinsipləri təşkil edir. Dissertasiya işi yazılarkən tarixi təsvir, analiz və sintez, ümumiləşdirmə, müqayisəli və sistemli təhlil metodlarından istifadə olunmuş, mövzu ilə bağlı tədqiqat əsərlərindəki faktoloji materiallar tənqidi yanaşma prinsipinə riayət edilməklə geniş şəkildə tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın mənbə bazasını təşkil edən sənədləri iki qrupa bölmək olar. Birinci qrupa hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə çap olunmuş sənədlər aiddir. Bunların içərisində Fövqəladə Təhqiqat Komissiyasının sənədləri, bu sənədlər əsasında Solmaz Tohidi-Rüstəmova tərəfindən hazırlanan və nəşr edilən toplu[1], Bakı Sovetinin fəaliyyətinin canlı şahidləri olan Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin bu mövzuya həsr olunmuş əsərləri[2] ilkin mənbə kimi qeyd edilə bilər. 1920-ci ilin aprel işğalından sonra Azərbaycanı məcburi tərk edərək mühacir həyatı yaşayan həmin şəxslər Bakı Sovetinin fəaliyyətinə və onun törətdiyi türk-müsəlman qırğınlarına dönə-dönə müraciət etmişlər.

İkinci qrup mənbələr sovet tədqiqatçıları tərəfindən 1917-1920-ci illərə aid nəşr edilən sənədlər toplusudur. Bu toplular içərisində P.Əzizbəyovanın 1917-1924-cü illəri əhatə edən sənədlər toplusunun I cildini[3], Qırmızı Ordu Komandanlığının 1917-1920-ci illərə aid direktivlərini[4], Kommunist və fəhlə partiyalarının nümayəndələrinin iclaslarının sənədlərini[5], Z.İbrahimov

---

[1] Документы Чрезвычайной Следственной Комиссии 1918-1920. Баку, Элм вя тяхсил, 2014, 455 с.; Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погро-мы в документах. Баку: Чашыоглы, 2013, 328 с.

[2] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, 112 s.; yenə onun: Azərbaycanda Milli Hərəkat. Bakı: Elm, 2009, 128 s.; yenə onun: Azərbaycanın təşkilində Müsavat. Bakı, 1920, 40 s.; yenə onun: Bakı və Azərbaycan tarixinə dair əsərlər 1918-1919. Bakı: Qanun, 2013, 160 s.; Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü. İstanbul. 1918; B., 1990, 46 s.

[3] Азизбекова П.А. В.И.Ленин друг народов Востока Сб. документов и материалов 1917-1924 гг. Кн.1. 1917-1920 гг. Баку: АН.Аз ССР, 1967, 423 с.

[4] Директивы Главного Командования Красной Армии (1917-1920) сборник документов/«Elm»in əlavəsi «Tarix» qəzeti, 1991, 1 iyun №18, s.3

[5] Документы Совещаний представителей коммунистических и рабочих партий. М.: Госполитиздат, 1957, 127 с.

və M.İsgəndərovun redaktəsi ilə nəşr edilən “Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar 1917-1918-ci illər”[1] adlı toplusunu və başqalarını qeyd edə bilərik.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya Bakı Xalq Komissarları Sovetinin tarixini həm sovet, həm mühacir, həm xarici ölkə, həm də çağdaş Vətən tarixçilərinin çoxsaylı monoqrafiya, elmi əsər və məqalələrini müqayisə yolu ilə elmi-obyektivlik prinsipləri əsasında, tarixşünaslıq müstəvisində ətraflı və tam şəkildə araşdıran ilk tədqiqat əsəridir. Dissertasiya işinin başlıca yenilikləri aşağıdakılardır:

- Bakı Xalq Komissarları Sovetinin tarixinə dair yazılmış əsərlər tənqidi təhlil süzgəcindən keçirilərək ilk dəfə tarixşünaslıq baxımından tədqiqata cəlb edilmişdir;
- 1918-ci ilin martında Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyanın bilavasitə rəhbərliyi ilə Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən soyqırımların səbəblərininin sovet hakimiyyətinin möhkəmləndirilməsi üçün görülən tədbirlər kimi təqdim edilməsi cəhdlərinin elmi cəhətdən əsassız olduğu tarixşünaslığın təhlili nəticəsində təsbit edilmişdir;
- Bakı Xalq Komissarları Sovetinin rəhbəri başda olmaqla bolşevik-daşnak qüvvələrinin türk-müsəlman əhalisinə qarşı soyqırımlarının erməni dövləti yaratmaq xülyasının gerçəkləşdirilməsilə əlaqədar həyata keçirilən siyasətin tərkib hissəsi olduğu ədadlandırılmışdır.
- S.Şaumyanın rəhbərlik etdiyi bu qurumun Azərbaycan xalqının milli mənafeyi və Azərbaycan reallığı ilə bağlılığının olmaması sənədlər və faktlar əsasında tədqiq edilmişdir;i
- Bakı Xalq Komissarları Sovetinin tarixinin tarixşünaslıq aspektində təhlili ilə bağlı hər dövrün tarixşünaslığına uyğun olaraq "bazası zəif olan ilkin sovet dövləti, "mükəmməl beynəlmiləl sovet dövləti" və “obyektiv reallığı əks etdirən müasir dövr” konsepsiyaları elmi dövriyyəyə daxil edilərək dəyərləndirilmişdir.

**Dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən Vətən tarixi üzrə ümumi xarakterli əsərlərin, konkret olaraq bədxah qonşularımızın xalqımıza qarşı yeritdikləri düşmənçilik, soyqırım siyasətinə dair kitabların, bukletlərin, siyasi pamflet və broşürlərin, təbliğat xarakterli məlumat kitabçalarının, orta və ali

[1] İbrahimov Z.İ., İsgəndərov M. Azərbaycanda sosialist inqilabının qələbəsi uğ-runda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar 1917-1918-ci illər. Bakı: Azərnəşr, 1960, 675 s.

məktəblər üçün dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər.

Dissertasiyada müxtəlif ideoloji cərəyanlara, o cümlədən xarici ölkə müəlliflərinə məxsus çoxsaylı tarixi əsərlərdən istifadə edilməsi gələcəkdə bu mövzunu araşdıran tədqiqatçılar üçün də böyük əhəmiyyət kəsb edə bilər.

Dissertasiya işindən soyqırımlara dair təşkil edilən elmi konfranslarda çıxış edən mühaziərəçilər, müxtəlif elmi seminar və simpozium iştirakçıları, Vətən tariximizlə maraqlanan geniş oxucu kütləsi də bəhrələnə bilər.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işi "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir. Müəllif bu mövzu ilə bağlı müxtəlif dillərdə olan mənbələr və ədəbiyyat üzərində uzun müddət tədqiqat aparmış, zəruri olan materialları toplamış, Bakı Xalq Komissarları Sovetinin tarixşünaslığına tezislər və məqalələr həsr etmişdir. Dissertasiya işinin başlıca müddəaları ilə bağlı beynəlxalq və respublika miqyaslı konfranslarda çıxışlar etmiş, onun bir sıra elmi məcmuələrdə məqalə və tezisləri nəşr olunmuşdur.

**Tədqiqat işinin strukturu.** Dissertasiya "Giriş", üç fəsil, dörd yarımfəsil, "Nəticə" və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DISSERTASIYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və tarixşünaslıq bazası elmi-obyektiv prinsiplər əsasında şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"Bakı Xalq Komissarları Soveti sovet tarixşünaslığında"** adlı **birinci fəsli** iki yarımfəsildən ibarətdir. ***"Bakı Xalq Komissarları Soveti XX əsrin 20-30-cu illər sovet tarixşünaslığında"*** adlanan I yarımfəsildə Bakı Xalq Komissarları Sovetinin tarixinin XX əsrin 20-30-cu illər sovet tarixşünaslığı ilk dəfə geniş, elmi-obyektiv prizmadan tədqiq edilmiş, ictimai-siyasi və ideoloji xüsusiyyətləri nəzərdən keçirilmişdir.

Rusiyada hakimiyyəti ələ keçirən bolşeviklər üçün Cənubi Qafqazda onların yeganə istinadgahı, mühüm geosiyasi və geoiqtisadi mövqeyə, zəngin neft ehtiyatlarına malik olan Bakını bütün vasitələrlə siyasi nüfuzu altında qoruyub saxlamaq, onu əldən verməmək olduqca böyük əhəmiyyət kəsb edirdi. Məhz bu səbəbdən də, istər 1920-1930-cu illər, istərsə də sonrakı dövr sovet tarixşünaslığında bolşevik hakimiyyətinin siyasi məram, tapşırıq və məqsədlərini həyata keçirən, erməniləri Azərbaycan torpaqları hesabına öz dövlətlərini qurmaq istəyi ilə ruhlandıran Bakı Xalq Komissarları Sovetinin obyektiv tarixi öz əksini tapa bilməzdi.

İlk təşəbbüs Qırmızı Professorlar İnstitutunun məzunları Y.Ratqauzer, S.Sef, A.Dubner, A.Rayevski, İ.Pçelin, A.Steklov tərəfindən göstərilmiş, 1920-1930-cu illərdə bu müəlliflər tərəfindən çoxlu sayda əsərlər yazılmışdır.[1] Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünə aid 1920-1930-cu illərdə yazılmış əsərlər nə qədər nöqsanlı olsa da, tənqidi yanaşmaq şərtilə

---

[1] Дубнер А. Бакинский пролетариат в годы революции (1917-1920). Баку: АЗГНИИ, 1931, 138 с.; Пчелин Н. Крестьянский вопрос при Мусавате (1918-1920). Баку: АЗГ НИИ, 545 с.; Раевский А. Английские «Друзья» и Мусаватские «патриоты». Баку: АЗГИЗ 1927, 72 с.; yenə onun: Английская интервенция и Мусаватское правительство, Баку: Красный Восток, 1927, 191 с.; yenə onun: Партия Мусават и ее контрреволюционная работа Баку: АЗГИЗ, 1929, 64 с.; Ратгаузер Я.А. Революция и гражданская война в Баку. Ч.1: 1917-1918 гг. Баку: Красный Восток, 1927, 222 с.; Сеф С.Е. Борьба за Октябрь в Закавказье. Тбилиси: Акционерное общ. Зак.книга, 1932, 162 с.; yenə onun: Революция 1917 года в Закавказье (Документы и материалы) Тбилиси: Акционерное общ. Зак.книга, 1927, 891 с.; Стеклов А. Армия мусаватского Азербайджана. Баку: АЗГИЗ, 1928, 74 с.; yenə onun: Красная Армия Азербайджана. Баку: АзГиз, 1928, 31 с.

onlar ilk mənbə kimi tədqiqata cəlb edilmişdir. Çünki, sovet dönəminin ilk illərində çap edilən bu əsərlərdə müəyyən məsələlələrə münasibət obyektiv xarakter daşıdığından 30-cu illərin sonlarında həmin müəlliflər repressiyaya məruz qaldılar və əsərləri yasaq edildiyindən uzun müddət onlardan istifadə etmək mümkün olmamışdı.

1920-1930-cu illər sovet tarixşünaslığında göstərilən müəliflərin Bakı Xalq Komissarları Sovetinin fəaliyyətinə münasibət nisbətən tarixi obyektiv xarakterli olmuş və buraxılan səhvlər də açıq-aydın bildirilmişdir.

Dissertasiyanın yarımfəslində 20-30-cu illər sovet tarixşünaslığının təhlili əsasında bütün fəaliyyəti boyunca antiazərbaycan mahiyyətli siyasi kurs yeridən Bakı Xalq Komissarları Sovetinin guya həmin dövrdə Azərbaycan xalqını öz ardınca aparan Müsavat partiyası ilə sinfi mübarizə aparması məsələsinin ön plana çəkildiyi sübuta yetirilir.

Eyni zamanda, bu yarımfəsildə ilk dəfə olaraq, 1920-1930-cu illər sovet tarixşünaslığında Bakı Xalq Komissarları Sovetinin bolşevik ideologiyasının azərbaycanlılar arasında geniş nüfuza, təsir dairəsinə malik olmadığını aydın şəkildə etiraf edən əsərlərin elmi təhlilləri də verilmişdir. 1920-1930-cu illərin sovet tarixşünaslığında məhz bu səbəbdəndir ki, Sovet hakimiyyəti uğrunda mübarizə və Bakı Xalq Komissarları Sovetinin tarixi işıqlandırılarkən Bakı ilə məhdudlaşmış, qəzalardakı hadisələrə isə olduqca az yer ayırmışdır.

Bu yarımfəsildə diqqəti cəlb edən məqamlardan biri də bilavasitə sözügedən hadisələrin nəinki təşkilatçıları, icraçıları, eyni zamanda proseslərə rəhbərlik etmiş insanların tədqiq olunan problemə dair əsərlərinin dövriyyəyə daxil edilməsi, onların öz prizmasından tarixşünaslıq məsələlərinin elmi-obyektiv təhlilidir.[1]

Birinci fəslin II yarımfəsli ***"Bakı Xalq Komissarları Soveti XX əsrin 40-80-ci illər sovet tarixşünaslığında"*** adlanır. Əgər Bakı Xalq Komissarları Sovetinin tarixinə dair 1920-1930-cu illər sovet tarixşünaslığı bu antiazərbaycan mahiyyətli cinayətkar qurumun fəaliyyətini sinfi mübarizə kimi təsvir edirdisə, 1940-1980-ci illər sovet tarixşünaslığı Bakı Xalq Komissarları Sovetinin fəaliyyətini Müsavatın antisovet qiyamını yatıran, ona qarşı vətəndaş müharibəsi apararaq Sovet hakimiyyətinin dayaqlarını Bakıda və bütün Cənubi Qafqazda möhkəmləndirən, xalqımız qarşısında misilsiz, əvəzini verə bilməyəcəyimiz, xidmətlər göstərən bir orqan kimi təqdim edirdi. Bu yarımfəsildə 1940-1980-ci illər tarixşünaslığında guya Azərbay-

[1] Шаумян С.С. Бакинская Коммуна. Баку: Красный Восток,1927, стр.40;

canı Sovet Rusiyasından ayırmağa cəhd edən Müsavat partiyasının bununla da türklərin və almanların bütün Cənubi Qafqazı işğal etmələrinə hesablanmış siyasi planlarının məhz Bakı Xalq Komissarları Soveti tərəfindən qarşısının alınması məsələsinə elmi-obyektiv, tənqidi münasibət bildirilmişdir.

1940-1980-ci illər dövrünün tarixçilərdən Y.Tokarjevski, P.Əzizbəyova, H.Əzimov və b.[1] tədqiq olunan mövzu ilə bağlı tədqiqat işlərinə nəzər saldıqda biz müəlliflərin hadisələrə - istər Bakı Xalq Komissarları Sovetinin hansı yolla Bakıda hakimiyyətə yiyələnməsi, istərsə də bu cinayətkar qurumun fəaliyyəti ilə bağlı məsələlərə siyasi sifarişin tələblərinə ciddi əməl etmək nöqteyi-nəzərindən yanaşdıqlarının şahidi oluruq.

Lakin istər 1920-1930-cu illər, istərsə də 1940-1980-ci illər sovet tarixşünaslığı Bakı neftinə olan son dərəcə həyati və zəruri tələbatı qabarıq təsvir etmiş, Bakı Xalq Komissarları Sovetinin Rusiyanı neftlə fasiləsiz təmin etməsi konsepsiyasını əsas sujet xətti kimi götürərək, sovet ideologiyasına sərf etməyən hər cür informasiyanı ikinci və üçüncü planda, çox zaman isə ümumiyyətlə, işıqlandırmağa, yaxud bütün neqativ amilləri və səbəbləri əks cəbhədə, sinfi düşməndə axtarmağa cəhd göstərmişdir:

Dissertasiyanın **"Bakı Xalq Komissarları Soveti mühacir və xarici ölkə tarixşünaslığında"** adlanan **ikinci fəsli** də iki yarımfəsildən ibarətdir. ***"Bakı Xalq Komissarları Soveti mühacir tarixşünaslığında"*** adlanan birinci yarımfəslində ilk dəfə olaraq Bakı Xalq Komissarları Sovetinin yaranması və fəaliyyəti ilə bağlı 23 aylıq müstəqillik və daha sonra mühacir həyatı yaşamış, Azərbaycan xalqının görkəmli dövlət xadimləri və şəxsiyyətləri olan Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Əlimərdan bəy Topçubaşov, Hüseyn Baykara və b. ümumi formada da olsa ərsəyə gətirdikləri tarixi əsərlər sovet tarixşünaslığı ilə müqayisəli şəkildə tədqiq edilmişdir.

Bu yarımfəsildə Bakı Xalq Komissarları Sovetinin tarixinin sovet tarixşünaslığı ilə müqayisədə mühacir tarixşünaslığında daha obyektiv tədqiq olunması, hadisələrin inkişaf dinamikasının, səbəb və nəticələrinin konkret faktlarla daha qərəzsiz, təhrifsiz təsvir olunduğu göstərilir. Bu yarımfəsildə mühacir tarixşünaslığının əsas üstünlüyü həmin müəlliflərin hadisələri mü-

---

[1] Азизбекова П.А. В.И.Ленин друг народов Востока Сб. документов и материалов 1917-1924 гг. Кн.1. 1917-1920 гг. Баку: АН.Аз ССР, 1967, 423 с.; yenə onun: Великая дружба Азербайджанского и русского народов. Баку: АН Аз.ССР, 1964, 417 с. və s.; Əzimov H. Azərbaycan qəzalarında Sovetlər (1917-1918-ci illər). Bakı: Elm, 1971, 126 s.; yenə onun: İnqilab dövründə Azərbaycanda kəndli təhşkilatları və sinfi mübarizə. Bakı: Elm, 1976, 37 s. və s.

əyyən bir ideoloji qəlibə salmaq üçün "yuxarı"dan heç bir göstəriş almamaları, ən başlıcası isə sözügedən dövrdə milli-azadlıq hərəkatımıza başçılıq etdikləri üçün Bakı Xalq Komissarları Sovetinin xalqımıza qarşı həyata keçirdikləri antiazərbaycan siyasətinin bütün ağırlığını çiyinlərində daşıdıqları qeyd olunur.

İkinci fəslin ***"Bakı Xalq Komissarları Soveti xarici ölkə tarixşünaslığında"*** adlanan II yarımfəsli Bakı Xalq Komissarları Sovetinin istər Bakıda, istərsə də Azərbaycanın digər qəzalarında yerli əhali arasında heç bir sosial dayağa malik olmaması və ümumiyyətlə, bolşevizm ideyalarının azərbaycanlıların tarixi, milli-mənəvi, ictimai-siyasi, dini-əxlaqi dəyərləri ilə bir araya sığmaması konsepsiyasından bəhs edən xarici ölkə tarixçilərinin əsərləri əsasında ilk dəfə olaraq geniş surətdə tədqiq edilmişdir. Bakı Xalq Komissarları Soveti tarixinə dair xarici ölkə tarixşünaslığında "Bakı türk milliyyətpərvərlərinin mərkəzi" kimi təqdim edildiyindən, "bolşevik firqəsinin bərk narahatlıq keçirməsi", "hakimiyyətə legitim yolla gələ bilməyəcəkləri", deməli, bu və ya digər hərbi-siyasi insidentə ehtiyac duyduqları xüsusi olaraq vurğulanır. Məhz bu səbəbdən də xarici ölkə tarixşünaslığı Bakı Xalq Komissarları Sovetinin Müsavatla mübarizəsini sinfi deyil, siyasi mübarizə kimi təqdim edir.

1920-ci il aprel işğalından sonra iki sistem arasındakı ideoloji mübarizə ilə bağlı xarici tarixçilərin problemə həsr etdiyi əsərlər[1] problemin daha dərindən öyrənilməsinə müsbət təsir göstərmişdir.

Dissertasiyanın **"Bakı Xalq Komissarları Soveti çağdaş Vətən tarixşünaslığında"** adlanan **üçüncü fəslində** sözügedən problemin müstəqillik illərində tədqiqinin tarixşünaslığı öz əksini tapmışdır. Bunlar 1980-ci illərin II yarısında Azərbaycanda milli-azadlıq hərəkatının başlanmasından sonra vətən tarixində yeni baxışlarla bağlı meydana gələn əsərlərdir. [2]

---

[1] Erhorn I. Kaukasien. Berlin, 1939, 104 p.; Kazemzadeh F.The Struggle for Transcaucasia (1917-1921). New York: Philosophical Library, 1951, 354 p.; Pipes R. The Formation of the Soviet Union. Communisim and Nationalizm 1917-1923. Revised Edition. Harvard University Press. Cambridge, Massachusetts 1964, 365 p.; Suny R. The Baku Commune 1917-1918. Class and Nationality in the Russian Revolution. New Jersy: Princeton University Press, 1972, 362 p.; Henry Barby. Le debacle russe: les extravagances Bolcheviques et l'epopee Armenienne. Paris: A. Michel, 1921, 261 p.

[2] Balayev A.H. 1917-1920-ci illər Azərbaycan milli hərəkatında müxtəlif siyasi partiyaların rolu/ Azərbaycan Demokratik Respublikası elmi məqalələr toplusunda. Bakı: Azərnəşr 1992, s.29-35; yenə onun: Балаев А.Г. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990, 95 с.; yenə onun: Балаев А.Г. Азербайджанское национальное движение: от "Мусавата" до Народного фронта. Баку:

Belə ki, Sovet hakimiyyəti dönəmində Bakı Xalq Komissarları Sovetinin tarixini tədqiq edən istər yerli, istərsə də digər sovet tarixçilərinin əsərlərində sözügedən qurumun sırf mərkəzin göstəriş və tapşırıqları əsasında fəaliyyət göstərməsindən bəhs edilirdi: "Bakı Xalq Komissarları Soveti sosialist tədbirlərinin həyata keçirilməsində RK(b)P MK-nın V.İ.Leninin göstərişlərini rəhbər tuturdu".[1]

Digər tərəfdən, Bakı Xalq Komissarları Sovetinin tarixi zərurətdən doğması konsepsiyası geniş ictimaiyyətə təlqin edilir, bu antimilli, antiazərbaycan mahiyyətli qurumun bütün fəaliyyətinə, hətta hakimiyyətə gəlmək üçün 1918-ci ilin yazında Bakıda və Azərbaycanın digər qəzalarında həyata keçirdikləri qırğın və talanlara da bəraət qazandırırdı: "Mart qələbəsinin tarixi əhəmiyyəti ondan ibarət oldu ki, bu qələbdən sonra Bakıda və Azərbaycanın bir sıra qəzalarında köhnə-mülkədar dövlət aparatının ləğv edilməsinə və Sovet hakimiyyəti orqanlarının yaradılmasına başlandı".[2]

Dissertasiyanın üçüncü fəslindən məlum olur ki, Bakı Xalq Komissarları Sovetinin çağdaş dövr Vətən tarixşünaslığı ilk növbədə xalqımızın qanına və malına susayan bu qurumun tarixinin elmi-obyektiv surətdə araşdırılması vəzifəsini məqsəd olaraq qarşısına qoymuşdur. Beləliklə, Bakı Xalq Komissarları Sovetinin çağdaş Vətən tarixşünaslığının tədqiqi aşağıdakı nəticələrə gəlməyə əsas verir: Təkzibedilməz faktlar sübut edir ki, Bakıda sözügedən dövrdə bolşeviklərin və erməni partiyalarının ən güclü rəqibinin Azərbaycan xalqını öz ardınca aparmaq iqtidarına malik olan

---

Элм, 1992, 104 с.; Həsənli C. Tarixi şəxsiyyətin tarixi. Əlimərdan bəy Topçubaşov. Bakı: Azərbaycan Diplomatik Akademiyası 2013, 587 s.; yenə onun: "Ağ ləkə"lərin kölgəsi. Bakı: Gənclik, 1991, 199 s.; yenə onun: Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920, Bakı: Azərnəşr, 1993, 361 s.; İsgəndərov A.C. Azərbaycan Demokratik Respublikası 20-30-cu illər tarixşünaslığında - Tarixi keçmişsiz bu günümüz və gələcəyimiz yoxdur/ Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçıların III Respublika Elmi Konfransının məruzələr məcmuəsi. Bakı. Azərbaycan, 1995, s.222-224; yenə onun: Azərbaycan həqiqətləri 1917-1920 Bakı: Elm və təhsil. 2012, 226 s.; yenə onun: Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Bakı: n.y., 2003, 52 s.; yenə onun: Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2005, 396 s.; yenə onun: Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920. Bakı: Adiloğlu 2006, 391 s.; yenə onun: Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Bakı: MEQA, 2004, 85 s.

[1] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Azərb. KP MK partiya tarixi institutu. Sov. İKP MK yanında Marksizm-leninizm institutunun filialı. I cild. Bakı: Azərnəşr. 1964, s.282-292

[2] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, s.281

Müsavat partiyası olmuşdur; Bolşeviklər istər Bakıda, istərsə də Azərbaycanın digər bölgələrində yerli əhali arasında heç bir dəstəyə, sosial bazaya malik olmamışlar; bolşevizm ideyaları, ümumiyyətlə,xalqımızın milli-mənəvi, sosial-psixoloji, dini-əxlaqi və tarixi dəyərləri ilə bir araya sığmamışdır; Bakı Sovetin legitim yolla hakimiyyətə gələ bilməyəcəyini başa düşdüyü, Bakıda, daha sonra Azərbaycanın digər qəzalarında total hakimiyyətə yiyələnmək üçün planlı surətdə soyqırımı siyasətini həyata keçirmişdir; 1918-ci ilin mart qırğınlarından sonra, aprelin 25-də Bakı Xalq Komissarları Soveti kimi təşkil olunaraq, köhnə milisi, ədliyyə orqanlarını ləğv etmiş, həyata keçirdiyi cinayətkar əməllərə hüquqi bəraət qazandırmaq üçün yeni qəza və xalq məhkəmələri təşkil etmişdir; Bakı Xalq Komissarları Soveti iqtisadi çətinliklər içərisində çapalayan Sovet Rusiyasını Azərbaycanın təbii sərvətləri, ilk növbədə nefti ilə təmin etmək məqsədilə milliləşdirmə adı altında qarətçi iqtisadi siyasət yeritmiş, iyunun 2-də neft sənayesinin, iyunun 5-də Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekretlər vermişdir; Bakı Xalq Komissarları Sovetinin bütün fəaliyyəti dövründə Azərbaycan xalqının milli istiqlal və azadlıq hərəkatını beşikdə boğmağa, müstəqil Azərbaycan dövlətinin qurulması prosesini əngəlləmək üçün həm Sovet Rusiyası, həm də digər siyasi qüvvələrlə, o cümlədən, Bakıdakı erməni milli partiyaları ilə sıx əməkdaşlıq etmişdir; Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan ermənipərəst mövqeyini bolşevizm bayrağı altında məharətlə gizlətmiş, Bakı Xalq Komissarları Sovetinə rəhbər vəzifələr ermənilər tərəfindən ələ keçirilmiş, Sovet Rusiyasının himayəsi altında tarixi Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti həyata keçirilmiş, Bakı Xalq Komissarları Soveti sədrinin şəxsi göstərişi və himayəsi altında qatı millətçilər - erməni-daşnaklar "Qırmızı Ordu"da komandan vəzifəsinə təyin edilərək, Azərbaycan qəzalarına göndərilmişdir.

1918-ci ilin martında Azərbaycan qəzalarında soyqırım və qətliamlar həyata keçirən bolşevik-daşnak ordusu Bakı Xalq Komissarları Sovetinin göstərişi ilə sonralar Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Tiflisdən Azərbaycana daxil olmasına da maneçilik törədirdilər. Lakin 1918-ci ilin Göyçay döyüşləri ilə Bakı Xalq Komissarları Sovetinin bu mənfur siyasəti iflasa uğradı. Bakı Xalq Komissarları Sovetinin Azərbaycan xalqının milli istiqlal hərəkatına, müstəqil dövlətçiliyimizin qurulması işinə törətdiyi əngəllər, sözügedən dövrdə ictimai-siyasi və iqtisadi duruma vurduğu ziyanlar, həyata keçirdiyi soyqırım siyasəti uzun illər boyu geniş ictimaiyyətdən gizlədilmiş, bu antiazərbaycan mahiyyətli cinayətkar qurumun

fəaliyyəti saxtalaşdırılaraq xalqımıza azadlıq və səadət bəxş edən qəhrəmanlar kimi təqdim edilmişdir. Nəticə etibarilə Azərbaycan tarixinin 1918-1920-ci iilər tarixi kobud təhriflərə məruz qalmışdır.

Tarix unudulanda müasir katoklizmlərlə, gözlənilməz hadisələrlə, siyasi, hüquqi, ideoloji haqsızlıqlarla üzləşən xalqlar hazırlıqsız və zəif duruma düşürlər. Bu baxımdan Bakı Xalq Komissarları Sovetinin tarixinin tarixşünaslığının elmi-obyektiv baxımdan öyrənilməsi böyük ictimai-siyasi əhəmiyyət kəsb edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumuləşdirmələr aparılmış, əldə olunan nəticələr təhlil edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**


1. Bakı Xalq komisarları sovetinin mühacir tarixşünaslığı. "Azərbaycan Universiteti nəşiriyyatı. Azərbaycan inlişaf etmiş cəmiyyətə doğru: realliqlar, perespektivlər Gənc tədqiqatçələrın 2 Fevral-Gənclər gününə həsr edilmiş ümumrespublika elmi-praktik konfransı.Bakı, 2011, s.232-233
2. Bakı Kommunası və ərzaq böhranı xx əsrin 20-30-cu illər sovet tarixşünasliğında. "Tarix və onun problemləri" Bakı 2014 № 3, səh.335-341
3. Bakı Sovetinin antiazərbaycan xarakterli neft siyasəti ötən əsrin 20-30-cu illər Sovet tarixşünaslığında. Uydurma erməni soyqırımı yalanlar, iftiralar;türk-müsəlman soyqırımı: faktlar, həqiqətlər. Bakı-2015, səh.192-196
4. Bakı Kommunasının türk - müsəlman əhalisinə qarşı həyata keçirdiyi Mart soyqırımı 20-30-cu illər Sovet tarixşünaslığında. Bakı Universitetinin Xəbərləri, № 2, Bakı-2015, səh.191-199
5. Деятельность Бакинского СНК и его председателя Степана Шаумяна в историографии Азербайджана в годы независимости. ГИЛЕЯ, КИЕВ-2016, № 7 с.142-145
6. Bakı xalq komissarları sovetinin tarixi xarici tarixşünaslıqda. "GEOSTRATEGİYA" Bakı – Mart-Aprel 2017, № 2, səh.59-61
7. Bakı Xalq Komissarları Sovetinin çağdaş tarixşünaslığı. "Tarix və onun problemləri" Bakı 2017 № 2, səh.329-334

**Асланов Эльшан Насиб оглы**

**Историография Бакинского Совета Народных Комиссаров**

***Резюме***

Диссертационная работа состоит из введения, трех глав, четырех параграфов, заключения и списка использованной литературы.

Во **введении** обосновывается актуальность темы и научная значимость исследования, указаны хронологические рамки диссертации, анализируется степень изученности проблемы на основе исторических трудов, определяются цели и задачи исследования, показана методологическая основа, научная новизна и практическая значимость работы.

Первая глава диссертации под названием «**Бакинский Совет Народных Комиссаров в советской историографии**» состоит из двух параграфов. В этой главе отмечается, что советская историография и фальсифицировала деятельность Бакинского Совета Народных Комиссаров. Деятельность Бакинского Совета Народных Комиссаров была представлена или как классовая борьба, или его деятельность преподносилась как борьба с мусаватистами за укрепление Советской власти в Баку и на всем Южном Кавказе и подчеркивались его неоценимые заслуги перед азербайджанским народом.

Вторая глава диссертации под названием «**Бакинский Совет Народных Комиссаров в эмигрантской и зарубежной историографии**» также состоит из 2 параграфов. В главе отмечается заслуга эмигрантской и зарубежной историографии, которая в отличие от советской историографии, дала объективную оценку деятельности Бакинского Совета Народных Комиссаров. Подчеркивается, что Бакинский Совет Народных Комиссаров не имел социальной опоры среди местного населения, и в целом, идеи большевизма были несовместимы с национально-духовными, общественно-политическими и религиозно-нравственными ценностями азербайджанского народа.

В третьей главе диссертации под названием «**Бакинский Совет Народных Комиссаров в современной отечественной историографии**» проанализированн научно-объективные исследования изучаемой проблемы в годы независимости.

В **Заключении** даются выводы и основные обобщения исследования, проанализированы полученные результаты.

**Aslanov Elshan Nasib oglu**

**Historiography of Baku National Commissars**

***Summary***

The thesis is devoted to one of the actual problems of Azerbaijani history. It consists of an introduction, three chapters, four subchapters, a conclusion, and reference list.

The introduction substantiates the topicality of the subject and its scientific significance, provides a chronological frame, based on scientific-objective principals comments on degree of the study of the problem and data of historiography data, determines goals and objectives of the research, as well as indicates the practical significance and scientific innovation, and the methodological framework of the research.

The first chapter of the thesis called -“Council of Baku National Commissars in Soviet Historiography”- consists of two subchapters: “Council of Baku National Commissars in 1920s and 1930s in Soviet Historiography” and “Council of Baku National Commissars in 1940s and 1980s in Soviet Historiography”. The chapter specifies that if in 1920s-1930s historiography portrayed activities of the Council of Baku National Commissars as a struggle of classes, the historiography of 1940s and 1980s presents it as the structure of invaluable service to our nation, which cracked down the anti-Soviet rebel of Musavat, and fortified the foundation of Soviets in Baku and whole South Caucasus by fighting civil war with Musavat.

Chapter II titled “The Council of Baku National Commissars in historiography of immigration and foreign country” is also divided into two subchapters. This chapter indicates more objective research of the history of the Council of Baku National Commissars in both immigration and foreign country historiography, and non-biased portrayal of the dynamics of the development of events and causes and results. It also talks about lack of support of the Council of Baku National Commissars by locals in both Baku and other regions of Azerbaijan, and overall Bolshevist ideas not fitting into the history, national and moral, public and political, and religious values.

The chapter III called - “The Council of Baku National Commissars in the modern historiography of homeland” - expresses the scientific-objective research of the mentioned issue in independence years.

The “Conclusion” includes recap (illation, corollary), synthesis, and analyses of findings of the the research.

Formatı: 60x84  1/16. F.ç.2.
Tiraj 100 nüsxə.
Turxan Nəşriyyat-Poliqrafiya Birliyi